APREL, 2010-cu il
№4(138)

Yazıçı: "Oğuz eli" qəzetinin ayrıca buraxılışı

*AZƏR ABDULLA*

# İNSAN ÖLMƏZ SÖZ İMİŞ

**Ğöydən gəlmiş sözlərik,
Sözlə oturduq, durduq.
Sözlə vurduq, vurulduq,
Söz eşidib bulandıq,
Söz eşidib duruldruq.
La İlahə İllƏllah.**

**Söz aparar, gətirər,
İnsan sözün quludur.
Bu, əmridir Allahın
Söz öncədir uludur,
La İlahə İlləllah.**

**Nə ağaca, daşa yox,
Nə pişiyə, quşa yox,
Sözü verdin insana
Bu nə bəxşişdir, Allah
La İlahə İlləllah.**

**Dolanar başdan keçər,
Itidir, daşdan keçər.
Sözün biri gülüşdən,
Biri göz yaşdan keçər,
La İlahə İlləllah.**

**Nəfəsi yox, canı yox,
Uçar işıqdan yeyin.
Damarı yox, qanı yox
Dirilər, başdan keçər,
La İlahə İlləllah.**

**Bu söz çatmaz hamıya-
Mal, pul yığmaq hədərmiş.
Sən demə ölməzmişik
Yaşımız cöz qədərmiş
La İlahə İlləllah.**

**Bir gün uçub dağılan
Insan söz yuvasıdı.
Uçanda söz göylərə
Insanın duasıdı,
La İlahə İlləllah.**